*Azərabyacan Respublikası*
*kənd təsərrüfatı nazirinin*
*06.09.2018 tarixli,*
*123 nömrəli əmri*
*ilə təsdiq edilmişdir.*

**Kənd təsərrüfatı məhsullarının qiymət məlumat bazası (informasiya ehtiyatının) idarəedilməsi ilə bağlı**

# METODİKİ GÖSTƏRİŞLƏR

## 1. Ümumi müddəalar

1.1. Bu Metodiki Göstərişlər bundan sonra "Qiymət məlumat bazası" adlandırılacaq. "Kənd təsərrüfatı məhsullarının qiymət məlumat bazası"na (informasiya ehtiyatına) Azərbaycan Respublikasında istehsal edilən və ölkəyə idxal olunan kənd təsərrüfatı məhsullarının satış qiymətləri barədə məlumatların toplanmasına və qiymət məlumat bazaya daxil edilməsinə məsul olan qurumların vəzifələrinin müəyyən edilməsi, məhsulların qiymətləri üzrə məlumatların formaları, mənbələri və toplanma dövriliyinə dair məsələlərin tənzimlənməsi, habelə kənd təsərrüfatı məhsulları bazarı iştirakçılarının operativ şəkildə məlumatlandırılmasını təmin etmək məqsədilə hazırlanmışdır.

1.2. Qiymət məlumat bazası www.aqrarbazar.az domen ünvanında yerləşir.

## 2. Kənd təsərrüfatı məhsullarının qiymət məlumat bazasının məhsullar və qiymətlər üzrə strukturu

2.1. Qiymət məlumat bazası aşağıdakı məhsul qruplarını əhatə edir:

2.1.1. Meyvə, tərəvəz, kartof və bostan məhsulları;

2.1.2. Heyvandarlıq məhsulları (ət, süd, yumurta, bal);

2.1.3. Dənli bitkilər (buğda, arpa, qarğıdalı dəni, düyü);

2.1.4. Texniki bitkilər və sənaye xammalı təyinatlı digər məhsullar (pambıq, tütün, şəkər çuğunduru, qarğıdalı, günəbaxan, zeytun, yaşıl çay yarpağı, barama, yun, gön-dəri);

2.1.5. İstehsal vasitələri (ot yemi, gübrə, damazlıq heyvan).

2.2. Hər bir qrup üzrə məhsulların növləri Əlavə 1, Əlavə 2-də verilmişdir.

2.3. Qiymət məlumat bazası aşağıdakı qiymət məlumatlarını əhatə edir:

2.3.1. Meyvə, tərəvəz, kartof və bostan məhsullarının tarladan satış (o cümlədən, mövsümdən sonra anbardan və istixanadan satış), topdansatış, pərakəndə satış və emal müəssisələri tərəfindən tədarük qiymətləri;

2.3.2. Heyvandarlıq məhsullarının (ət, süd, yumurta, bal) pərakəndə satış qiymətləri;

2.3.3. Ətin və yumurtanın topdansatış qiymətləri;

2.3.4. Ətin diri çəkidə satış qiymətləri;

2.3.5. Südün qəbul məntəqələri tərəfindən satın alınan qiymətləri;

2.3.6. Yunun və gön-dərinin əhali və ya ət kəsimi məntəqələri tərəfindən satış qiymətləri;

2.3.7. Dənli bitkilərin mövsüm dövründə sahədən (fermer) satış və mövsümdən sonra topdansatış qiymətləri;

2.3.8. Texniki bitkilərin və sənaye xammalı təyinatlı digər məhsulların (pambıq, tütün, şəkər çuğunduru, texniki sort üzüm, qarğıdalı, günəbaxan, zeytun, yaşıl çay yarpağı, barama, yun, gön-dəri) tədarük müəssisələri tərəfindən satın alınan qiymətləri;

2.3.9. İstehsal vasitələrinin (ot yemi, gübrə, damazlıq heyvan) pərakəndə satış və ot yeminin əlavə olaraq sahədən və ya topdansatış qiymətləri.

2.4. Bütün məhsul növləri və ya çeşidləri üzrə qiymətlər aşağı, orta və yuxarı səviyyələr nəzərə alınmaqla toplanılır.

## 3. Kənd təsərrüfatı məhsullarının qiymət məlumat bazasının məlumat mənbələri və məlumatların toplanma dövriliyi

3.1. Qiymət məlumat bazasının məlumat mənbələri və məlumatların toplanması dövriliyi müxtəlif məhsul qrupları və qiymət məlumatları üzrə aşağıdakı kimi müəyyən olunmuşdur:

3.1.1. Meyvə, tərəvəz, kartof və bostan məhsullarının pərakəndə satış qiymətləri üzrə məlumat mənbələri və məlumatların toplanması dövriliyi:

| Qiymət toplanan bazarlar (və ya satış yerləri) | Məlumatın toplanmasına məsul qurum | Məlumatın toplanma dövriliyi |
|---|---|---|
| 8-ci km bazarı (Bakı)<br>Təzə bazar (Bakı)<br>Yaşıl bazar (Bakı)<br>Sumqayıt Mərkəzi Bazarı<br>Gəncə Mərkəzi Bazarı<br>Şəmkir bazarı<br>Tovuz bazarı<br>Yevlax bazarı<br>Göyçay bazarı<br>Ucar bazarı<br>Şamaxı bazarı<br>Şəki bazarı<br>Beyləqan bazarı<br>Bərdə bazarı<br>Sabirabad bazarı<br>Salyan bazarı<br>Cəlilabad bazarı<br>Lənkəran bazarı<br>Xaçmaz bazarı | Bakı şəhərində fəaliyyət göstərən bazarlardan məlumatlar “Aqrar Tədqiqatlar Mərkəzi” publik hüquqi şəxsin əməkdaşları, digər şəhər və rayonlarda fəaliyyət göstərən bazarlardan məlumatlar isə Dövlət Baytarlıq Xidmətinin yerli qurumlarının əməkdaşları tərəfindən toplanılır.<br><br>**Qeyd:** *Məlumatların toplanılması Dövlət Aqrar İnkişaf Mərkəzləri tərəfindən koordinasiya olunur.* | Bakı şəhərində fəaliyyət göstərən bazarlardan həftədə 2 dəfə, digər şəhər və rayonlarda fəaliyyət göstərən bazarlardan həftədə 1 dəfə |

3.1.2. Meyvə, tərəvəz, kartof və bostan məhsullarının topdansatış qiymətləri üzrə məlumat mənbələri və məlumatların toplanması dövriliyi:

| Qiymət toplanan bazarlar (və ya satış yerləri) | Məlumatın toplanmasına məsul qurum | Məlumatın toplanma dövriliyi |
|---|---|---|
| 8-ci km bazarı (Bakı)<br>Yaşıl bazar (Bakı) | | Bakı şəhərində |